# Görkəmli alim-pedaqoq, bəstəkar, ictimai xadim, Qafqazın Kabalevskisi...

*(Əvvəli ötən sayımızda)*

**Onu da qeyd etmək lazımdır ki, bəstəkarın "Xeyir və Şər", "Tıq-tıq xanım", "Sərçəcik" adlı uşaq operaları, Respublika İncəsnət Gimnaziyasının və 3№li uşaq incəsənət məktəbi uşaqlarının ifasında Azərbaycan Dövlət Televiziyası, İctimai Televiziya tərəfindən çəkilərək efirdə dəfələrlə göstərilmişdir, həm də adları qeyd olunan telekanalların Qızıl fonduna daxil edilmişdir.**

Bu gün bəstəkar, alim, pedaqoq və ictimai xadim olan O.Rəcəbov, eyni zamanda, elmi-tədqiqat işlərinə rəhbər kimi də çox məhsuldar fəaliyyət göstərir. Belə ki, 1992-2018-ci illər ərzində məhz onun rəhbərliyi altında 10 musiqiçi-müəllim pedaqoji elmlər üzrə fəlsəfə və elmlər doktoru elmi dərəcələrinə, dosent, professor kimi elmi adlara layiq görülərək öz sərbəst fəaliyyətlərini davam etdirirlər.

Bu yaxınlarda nəşr olunmuş "Azərbaycan musiqisinə dair ensiklopediya və xalq musiqisi ilə əlaqədar əlavə məlumatlar" adlı kitabda O.Rəcəbovun icraçı rəhbər kimi çox böyük rolu olmuşdur.

Orta ümumtəhsil, uşaq musiqi məktəblərinin, incəsənət gimnaziyalarının yuxarı sinif şagirdləri və musiqi kollektivlərinin tələbələri üçün nəzərdə tutulmuş 600 səhifəlik bu monumental əsərin nəşrinin həyata keçirilməsində ümumi rəhbər kimi Azərbaycan və SSRİ xalq artisti, professor Fərhad Bədəlbəylinin çox böyük zəhmətini də xüsusi olaraq qeyd etmək lazımdır. Bu layihənin reallaşmasında Əməkdar incəsənət xadimi, fəlsəfə elmlər doktoru Gülnar Abdullazadənin də xüsusi rolu olmuşdur.

Bu kitabı respublikamızın mədəniyyət, təhsil və elm sahəsinə bir töhvə hesab etmək olar.



**Oqtay Rəcəbov Azərbaycanda ilk dəfə olaraq müsəlman dininə aid 10 mahnıdan ibarət "İlahi nəğmələr" adlı mahnılar silsiləsini yaradaraq kitab şəklində çap etdirmiş və 2005-ci ildə Hacı Yaşarın vokal-kvartet qrupu vasitəsilə diskə yazdırmışdır. Mahnıların sözləri dövrümüzün tanınmış şairlərinə məxsusdur. 15 il keçməsinə baxmayaraq, Azərbaycanın müxtəlif yerlərində keçirilən dini toy məclislərində bu silsilədən geniş istifadə olunur.**

Bu vokal silsilənin yaradılmasına maliyyə köməkliyi göstərən "Günay Sığorta Şirkəti"nin prezidenti, iş adamı Mahmud Məmmədovun xüsusi əməyi də qeyd olunmalıdır.

Bəstəkar Oqtay Rəcəbov, eyni zamanda, müəyyən dövrlərdə xeyriyyəçiliklə də məşğul olmuşdur. Belə ki, məhz onun əməli işinin nəticəsində Respublika İncəsənət Gimnaziyasına 40, Bakı Musiqi Akademiyasına 20, Dövlət Televiziya və Radio Şirkətinin simfonik orkestri üçün London şəhərindən 10 Avropa Nəfəs Musiqi alətləri hədiyyə olaraq Bakıya gətirilmişdir. Bu xeyriyyə işinin XXI əsri əvvəllərində Bakıda fəaliyyət göstərən "World in Need" adlı xeyriyyə cəmiyyəti məhz Oqtay Rəcəbovun xahişi ilə reallaşdırmışdır.



Digər tərəfdən bəstəkar 1992-2001-ci illərdə özünün yaratdığı Respublika İncəsənət Gimnaziyasının fasadının uçmuş üzlük daşlarının düzəldilməsi, kiçik və böyük konsert zallarının əsaslı təmiri üçün İran İslam Respublikasının 3 filminə bəstələdiyi musiqilər üçün aldığı 30 (otuz) min dollar qonararının hamısını təmənnasız xərcləmişdir.

**Oqtay Rəcəbovun bu işlərinə görə Respublika Dövlət Televiziyası və İctimai Televiziyası kanallarında hərəsi 1 saat olmaqla 2 sənədli film çəkilərək xalqımızın diqqətinə çatdırılmışdır.**

Məhz yuxarıda göstərilənlərə yekun olaraq, Oqtay Rəcəbovun hərtərəfli yaradıcılığı haqqında dahi bəstəkarımız, Xalq artisti, Dövlət Mükafatları laureatı Tofiq Quliyevin vaxtilə "Respublika" qəzetində çap etdirdiyi "Oqtay Rəcəbov Qafqazın Kabalevskisidir" adlı məqaləsinin son sətirlərini diqqətə çatdırmaq istərdim: "Dünyada elə insanlar vardır ki, onlar öz yaradıcılıqları vasitəsilə xalqını, elini bütün dünyaya tanıtdırırlar. Belə insanlardan biri də bəstəkar, alim, pedaqoq Oqtay Rəcəbovdur. O, Qafqazın Kabalevskisidir"! Onu həm xalqımız, həm də bütün Şərq üçün qorumaq lazımdır".

**2021-ci ildə görkəmli bəstəkar, bənzərsiz alim, fədakar pedaqoq, nəhayət, tanınmış ictimayi-siyasi xadim olan Oqtay Rəcəbovun 80 yaşı tamam olub. Fürsətdən istifadə edərək onu təbrik edir, ona cansağlığı və yeni-yeni müvəffəqiyyətlər arzulayırıq.**

**Fərahim SADIQOV,**
**Bakı Elm-Təhsil Mərkəzinin prezidenti, pedaqogika elmləri doktoru, professor, Beynəlxalq Türk Akademiyasının həqiqi üzvü, akademik Yusif Məmmədəliyev və akademik Mehdi Mehdizadə mükafatları laureatı**

**Azad Azərbaycan.- 2022- ci il.- 17 noyabr.- S. 7.**